# AKADEMİK MAHMUD KƏRİM OĞLU KƏRİMOV – 60 İL



**ƏZIZ VƏ HÖRMƏTLI MAHMUD MÜƏLLIM!**

"Energetikanın problemləri" jurnalının təsisçıləri- Azərbaycan MEA Fizika Institutu, "Azərenerji" ASC Az.ET və Layihə-axtarış Energetika İnstitutunun əmək kollektivləri adından, Sizi, Milli Elmlər Akademiyasının Prezidenti, akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor, görkəmli alim və elm təşkilatçısını 60 illik yubiley münasibətilə səmimi qəlbdən təbrik edirik.

Sizin elm təşkilatçısı kimi yorulmaz fəaliyyətiniz çoxşahəli və hərtərəflidir, elmi axtarışlarınız və onların həyata bağlılığı elmi istedadınızın təzahürüdür.

Siz kompleks müasir tədqiqat üsullarından istifadə edərək yüksəkmolekullu sistemlərdə güclü elektrik sahəsinin və qazboşalmalarının təsirləri ilə bağlı olan elektron və molekulyar prosesləri və materialları xarakterizə edən xüsusiyyətlərin elektrik sahəsinin təsirləri ilə idarə olunması, makromolekulların informasiya yaddaşı, oksid dielektriklərdə nöqtəvi defektlərin yaranma mexanizmi və kinetikası məsələləri ilə məşğul olaraq mühüm nəticələr əldə etmisiniz.

Siz elektron paramaqnit rezonansı sahəsində yüksək hazırlıqlı mütəxəssissiniz və bu tədqiqat metodunu fizika, kimya və biologiyanın müxtəlif məsələlərinin həllinə uğurla tətbiq etməniz çoxsaylı müəlliflik şəhadətnamələri almağa imkan vermişdir.

Akademiyaya rəhbərlik etdiyiniz müddətdə Respublikamız üçün böyük əhəmiyyət kəsb edən radiasiya təhlükəsizliyi, radioekologiya, bərk cisimlərdə radiasiya effektləri və radiasiya materialşünaslığı istiqamətlərində fundamental elmi və texniki tədqiqat işləri aparılmış və aparılır.

Sizin uzun illər ərzində sərf etdiyiniz gərgin əməyiniz elmi qurumların strukturunun müəyyənləşdirilməsinə, tədqiqatların müasir səviyyədə aparılmasına və Azərbaycan elminin inkişaf strategiyasının müəyyənləşdirilməsinə imkan verir.

Əziz Mahmud müəllim, Sizi bir daha yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, can sağlığı, uzun ömür, çoxsahəli elmi fəaliyyətinizdə yeni – yeni uğurlar arzulayırıq.

HÖRMƏTLƏ,

REDAKSIYA HEYƏTI